Səh. 2 Gənc karyeristin iztirabları – Azər Musaoğlu
Səh. 3 Kitab oxumuruqmu? – Afiq Muxtaroğlu
Səh. 5 Mənim bitməyən nağıllarım – Esmira Ələkbərli
Səh. 6 Yarı yolda qalmış ömür – Aytən Fətullayeva
Səh. 3 Cəmiyyət və əxlaqi dəyərlər – Hacı Bəkiroğlu
Səh. 4 GÜRCÜSTANIN SABİQ TƏHSİL VƏ ELM NAZİRİ TAMAR SANİKİDZE İLƏ MÜSAHİBƏ
Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 NOYABR
2023-CÜ İL
№ 021 (192)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## AVROPA KOMİSSİYASI Aİ-YƏ GÜRCÜSTANA NAMİZƏD STATUSUNUN VERİLMƏSİNİ TÖVSİYƏ EDİB



Avropa Komissiyası Avropa İttifaqı Şurasına Gürcüstana namizəd statusunun verilməsini tövsiyə edib.

Bu barədə Avropa Komissiyasının Prezidenti Ursula von der Leyen Avropa İttifaqının qonşuluq və genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi ilə birgə mətbuat konfransında bildirib.

***“Gürcüstan namizəd statusu əldə etməlidir, çünki həqiqətən də bu istiqamətdə addımlar atılıb. Təbrik edirik”,*** – deyə Avropa Komissiyasının Prezidenti bildirib.

Ursula von der Leyen Aİ-nin Gürcüstan xalqının Avropa istəyini tam dəstəklədiyini deyib. O, Gürcüstan hökumətini bu istəyi nəzərə almağa, müxalifət və vətəndaş cəmiyyəti ilə əməkdaşlıq etməyə, həmçinin daha əvvəl təqdim edilmiş 12 tövsiyənin yerinə yetirilməsinə fokuslanmağa çağırıb.

Avropa Komissiyasının Prezidenti, həmçinin Gürcüstan müxalifətini parlament proseslərində iştirak etməyə çağırıb. Əlavə edib ki, Gürcüstan de-oliqarxizasiya istiqamətində nəzərəçarpan addımlar atıb, anti-korrupsiya şurası təsis edilib, ona görə də Avropa Komissiyası namizəd statusunun verilməsini tövsiyə edir.

Qeyd edək ki, Avropa İttifaqı Gürcüstana namizəd statusunun verilməsi ilə bağlı yekun qərarı bu ilin dekabrında verəcək.

## İRAKLİ QARİBAŞVİLİ: GÜRCÜSTAN ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNAQİŞƏSİNDƏ TƏRƏF TUTA BİLMƏZ



Rəsmi Tbilisi Ermənistan-Azərbaycan münasibətlərində neytrallığı qoruyur və tərəf tuta bilməz. Bunu Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Paris Sülh Forumunun panel müzakirəsində deyib.

Onun sözlərinə görə, Gürcüstan hər iki ölkə ilə dostluq əlaqələrinə malikdir. Bu səbəbdən də Gürcüstan 100 faiz neytrallıq nümayiş etdirir.

***“Gürcüstanın Azərbaycanla strateji tərəfdaşlıq əlaqələri, dostluq əlaqələri var. Biz, həmçinin Ermənistanla dostluq əlaqələrinə malikik. Gürcüstan qərəzli ola bilməz, biz 100 faiz neytralıq və bu vəziyyətdə heç bir tərəfi tuta bilmərik”,*** – deyə Baş nazir bildirib.

## NATO BAŞ KATİBİ: RUSİYANIN GÜRCÜSTANDA HƏRBİ BAZA YARATMAĞINI QƏBULEDİLMƏZ HESAB EDİRİK



“Biz Gürcüstanın suverenliyini və ərazi bütövlüyünü qətiyyətlə dəstəkləyirik”.

Bu barədə NATO Baş katibi Yens Stotlenberq Brüsseldə Aİ müdafiə nazirlərinin görüşündən qabaq jurnalistlərə açıqlamasında bildirib.

***“Biz Gürcüstanın işğal olunmuş torpaqlarında Rusiyanın hərbi baza yaratmağını qəbuledilməz hesab edirik. Bu addım Gürcüstanın ərazi bütövlüyü və suverenliyini pozur. Bu, Rusiyanın öz hərbi məqsədlərinə nail olmaq üçün hara qədər gedə biləcəyini göstərir və biz bunu Ukraynada gördük”,*** – deyə Baş katib qeyd edib.

## ƏDLİYYƏ NAZİRİ: SAAKAŞVİLİNİN SƏHHƏTİ YAXŞILAŞIB VƏ O, PENİTENSİAR MÜƏSSİSƏYƏ KÖÇÜRÜLƏCƏK



Gürcüstanın 3-cü Prezidenti Mixeil Saakaşvilinin səhhəti yaxşılaşıb və həkimlər müvafiq tövsiyə verdiyi zaman həbsxanaya köçürüləcək. Bunu Gürcüstanın ədliyyə naziri Rati Breqadze jurnalistlərə açıqlamasında deyib.

***“Məhkum Saakaşvili ilə bağlı mən dəfələrlə demişəm ki, biz qanun qarşısında tamamilə doğruyuq. Bu, həm Gürcüstandakı məhkəmələr, həm də Strasburq məhkəməsi tərəfindən təsdiqlənib. Aydın oldu ki, dövlət həmin şəxsin sağlamlıq hüquqlarının tam qorunması üçün hər şeyi edir. Bildiyiniz kimi, onun səhhəti yaxşılaşıb, biz buna görə sevinirik və həkimlər müvafiq tövsiyəni verəndə o, penitensiar müəssisəyə köçürüləcək”,*** – deyə ədliyyə



# GƏNC KARYERİSTİN İZTİRABLARI

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Kim deyir ki, indi nail olmaq, uğur qazanmaq çətindir, mümkün deyil, heç bir şərait yoxdur – yanılır. Burada vəzifədə və ya müxtəlif fəaliyyət sahələrində irəliləmək, uğur qazanmaq, nail olmaq üçün münbit şərait, hətta şəraitlər var.

Kim deyir ki, işsizlik baş alıb gedir, ölkə boşalıb gedir – dübarə yanılır. Burada iş də var, işverən də.

Kim deyir ki, karyera qurmaq, karyerada irəliləmək üçün vəzifəli dostun-tanışın, deputat qohumun, nazir daydayın olmalıdır – səbarə yanılır. Burada karyera qurmaq, karyerada irəliləmək üçün əvvəlcə özün təpədən dırnağa karyerist olmalısan.

Bunu da qeyd edim ki, çaşbaş qalan olmasın, çünki bizim buralarda karyerlərin və karyerlərdə işləyənlərin sayı da az deyil. Mənim dediyim karyerist – karyerdə – daş, qum karxanasında işləyən yox, karyerasını hər şeydən üstün tutan mənsəbpərəstdir.

Hə. Karyerist oldunmu vəzifədə və ya müxtəlif fəaliyyət sahələrində irəliləyəcəksən də, arzuladığın işin də olacaq, maşının da, evin də, hətta sevgilin də. Kor nə istər? – İki göz! Biri əyri, biri düz! Amma sən karyerist olanda gözün hər ikisini də düz istəyəcəksən. Hətta hər yerdə gözün olmağa başlayacaq. Məsələn, başqasının malına, mülkünə, torpağına, maşınına, işinə, eşinə göz qoyacaqsan, karyerada irəlilədikcə gözün doymayacaq, acgöz olacaqsan; dostun-tanışın çoxalacaq, dostun-tanışın da sənin əvəzinə görməyə başlayacaq, sənin görə bilmədiklərini onlar görəcəklər, sənin göz qoya bilmədiklərinə onlar göz qoyacaqlar və beləliklə də görmə və gözqoyma arealın genişlənərək təkcə öz gələcəyini deyil, hətta qohum-əqrəbanın da gələcəyini görə biləcəksən, uşaqların da özün kimi "gözüaçıq" olacaqlar.

Amma əvvəlcə gərək karyerist olasan, heç nədən utanmayasan, çəkinməyəsən. Evdə oturub, diplomunu qabağına qoyub çəkdiyin zəhmətin hədər getməsi haqqında ağılar demək, dəyər verilməyən istedadını lənətləmək, vicdanını söyərək iztirab çəkmək əvəzinə bu münbit şəraitdən istifadə etməlisən – tüpürməlisən prinsiplərinə, mövqeyinin dirəyinə ingilis bayrağı asmalısan, səndən ötrü "ədalət" ümumi isim yox, xüsusi isim olmalıdır, zalımın əl-üzünü yumalısan, karyera bazarında bütün ictimai dəyərləri dəyər-dəyməzinə satmağı bacarmalısan, yeri gələndə milli kimliyini danmalısan, qınından çıxıb qınına lağ eləməlisən, partiyaya qoşulmalısan, seçkiləri saxtalaşdırmalısan, nahar yeməyini restoranlarda Kaxeti şərabı ilə, axşam yeməyini dindarlarla iftar süfrəsində yeməlisən... Bunları etmək o qədərmi çətindir ki, diplomunu qabağına qoyub, istedadını lənətləyib, vicdanını söyərək hər gün karyera qurmaq haqqında beynini yorub iztirab çəkirsən?..

Bu da sənə karyera qurmağın və karyerada irəliləməyin asan yolu. Nə qədər ki, bu münbit şərait var, istifadə elə. Bu cür şəraiti burada qoyub iş axtarmaq üçün, karyera qurmaq üçün Avropaya getməyə dəyməz. Bu cür münbit şəraiti Avropanın heç kəndində də tapa bilməyəcəksən. Sənin Avropada nə itin azıb? Avropada itin-pişiyin hüququ səninkindən yaxşı qorunur.

Amma qınamaq da olmaz. Axı karyerist olmaq üçün də istedad lazımdır. Hər yerindən duran vicdanlı, namuslu, əxlaqlı, əqidəli karyerist ola bilməz axı. Burada gendən də çox şey asılıdır. Ya gərək genetik olaraq karyerist olasan, ya uşaq vaxtdan görüb-götürəsən, ya da vicdanı, namusu, əxlaqı, əqidəni arxaizm kimi lüğətindan çıxarıb atasan. Əks halda, karyerana karyerdə daş yonmaqla başlayıb, daş yonmaqla da son qoyacaqsan. Burada belədir yəni.

## TÜRKİYƏ SƏFİRİ: TÜRKİYƏ BUNDAN SONRA DA AZƏRBAYCANIN YANINDA OLACAQ



Azərbaycan 44 günlük müharibə ilə sadəcə öz ərazilərini azad edib, Cənub Qafqazda sülh, regional barış və bölgə xalqlarının dinc birgə yaşayışı üçün imkan yaradıb.

Bunu Türkiyənin Gürcüstandakı səfiri Ali Kaan Orbay Azərbaycanın Zəfər Günü münasibətilə Tbilisidə keçirilən tədbirdə deyib.

"Azərbaycan bu hərbi əməliyyatı öz torpaqlarında həyata keçirib, dünya bunu görməlidir. Azərbaycan bu addımı gerçəkləşdirərkən heç kimin torpağına təcavüz etməyib, öz işğal altındakı torpaqlarını azad edib. Türkiyə bundan sonra da Azərbaycanın yanında olacaq, işğaldan azad edilən torpaqların inkişaf etdirilməsində öz dəstəyini verəcəkdir", – deyə səfir bildirib.

## GÜRCÜSTANIN ƏDLİYYƏ TƏDRİS MƏRKƏZİ VƏ TÜRKİYƏ ƏDALƏT AKADEMİYASI YENİ ƏMƏKDAŞLIQ MƏRHƏLƏSİNƏ BAŞLAYIR




Tərəflər hər iki ölkənin Ədliyyə Nazirliyinin sıx əməkdaşlığı əsasında birgə tədris kursları hazırlayacaqlar. Gürcüstanın Ədliyyə Tədris Mərkəzinin yaydığı məlumata əsasən, kursların məqsədi ədliyyə sistemi əməkdaşlarının peşə bilik və bacarıqlarını təkmilləşdirmək olacaq.

Müvafiq sənədləri Gürcüstanın Ədliyyə Tədris Mərkəzinin direktoru Vaxtanq Jvaniya və Türkiyə Ədalət Akademiyasının prezidenti Muhittin Özdemir imzalayıb.

Bildirilib ki, Vaxtanq Jvaniya Türkiyəyə səfəri çərçivəsində Türkiyənin ədliyyə nazirinin müavini Hasan Yılmazla da görüşüb. Tərəflər təhsil istiqamətindəki əməkdaşlığın gələcək inkişafı barədə razılığa gəliblər.

V.Jvaniya həmçinin Türkiyənin Cəzaçəkmə və Probasiya Müəssisələri və Həbsxana Əməkdaşlarının Tədris Mərkəzinin direktoru, Türkiyə Ali Məhkəməsinin prezidentinin birinci müavini, Türkiyə Konstitusiya Məhkəməsinin baş katibinin müavini, Türkiyə Dövlət Şurasının baş katibi, Gürcüstanın Türkiyədəki səfiri ilə də görüşlər keçirib.

Görüşlər çərçivəsində tərəflər hər iki ölkənin təcrübəsini bölüşüblər və gələcək əməkdaşlığın möhkəmləndirilməsi haqqında müzakirələr aparıblar.

Qeyd edək ki, Gürcüstanın Ədliyyə Tədris Mərkəzinin direktoru Türkiyədə rəsmi səfərdə heyətlə birlikdə olub.

## AZƏRBAYCAN GÜRCÜSTANA POLİS ATTAŞESİ TƏYİN EDİB



Azərbaycanın Gürcüstandakı fövqəladə və səlahiyyətli səfiri Faiq Quliyev Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri ilə görüşüb.

Məlumatı Gürcüstan DİN yayıb.

Bildirilib ki, Faiq Quliyev Azərbaycanın Gürcüstandakı səfirliyinin nəzdində Daxili İşlər Nazirliyinin nümayəndəliyinin rəhbəri, polis polkovniki Adil Bağırovu Vaxtanq Qomelauriyə təqdim edib.

Vaxtanq Qomelauri Adil Bağırovu polis attaşesi təyin edilməsi münasibətilə təbrik edib və ona fəaliyyətində uğurlar arzu edib.

Məlumata görə, görüş zamanı tərəflər iki ölkə arasında hüquq-mühafizə sahəsindəki intensiv əməkdaşlığın vacibliyini vurğulayıblar.

"Tərəflər həmçinin perspektivlər barədə də danışıblar və gələcəkdə müxtəlif istiqamətlərdə əməkdaşlığı fəal şəkildə davam etdirməyə hazır olduqlarını bildiriblər", – qurumun məlumatında yazılıb.

# KİTAB OXUMURUQMU?



Tez-tez eşitdiyimiz "biz kitab oxuyan deyilik", "bizimkilər kitab oxuyandırlarmı?" kimi düşünənlərin fikirlərinə bəzi korrektələr etmək istəyimin anlayışla qarşılanacağına böyük ümid bəsləyirəm. Onların düşüncələrində həqiqət payı olmamış deyil.

Dünyanın ən az oxuyanlarından olduğumuzu bilirəm. Oxumağın, mütaliənin əksəriyyətimizin uzaq düşdüyü sahə olduğundan da xəbərim var. 20-30 il qabaq mütaliə edənlərin, kitab alanların, qəzet-jurnala abunə olanların sayının dəfələrlə çox olması da yadımdadır.

Kitab oxumaq, mütaliə etmək vərdişindən uzaq düşmüş cəmiyyət özünün bu ənənəsini unudub, yadırğayıb. Eyni ailədə böyüklü-kiçikli hamının kitab sevgisinə tutulduğu zaman artıq tarixə çevrilib. Mütaliə məsələsində nəsillərin estafeti, varislik məsələsi haradasa qırılıb.

Buraya qədər yazdıqlarımla razı olacağınızdan əminəm. Niyəsini deyimmi? Çünki olanları yazmışam. Yazdıqlarım mövcud acı gerçəkliyin yüzdə biri ola, olmaya.

İndi baxaq görək biz niyə oxuyan toplumdan oxumayana çevrildik. Bunun bir "əmmə"si-filanı olmalı deyilmi? Mən bu səbəblərin bir qismini sadalayım, siz də barmağınızı qatlayın. Razı qalmadığınız yerdə barmağınızı qatlamasanız da olar.

Birincisi, kitablar bahadır. Düzdür, bizim boş-boş şeylərə xərclədiyimiz böyük pullarla müqayisədə bu bahalıq nəzərəçarpacaq dərəcədə cüzi görünür. Bəzən çörək almağa pul tapa bilməyən birinin kitab almaq üçün pulunun heç olmaması təbiidir və kitab onun düşünəcəyi sonuncu bir şeydir. O, kitaba, yəni mənəviyə meyilləndikdə maddi çatışmazlığa, maddiyə imrəndikdə isə mənəvi yoxsulluğa məhkumdur. Özümüzü yorub, onu kitab oxumağa vadar edə bilərikmi?

İkincisi, maddi mənəvini üstələyərək bir küncə sıxışdırıb. Maddiyyatın ilk sırada durduğu bir yerdə mənəvi öz varlığını güc-bəla qoruyur, mənəvi maddi olanın kobud davranışları altında əzilməklə məşğuldur. İnsanların əşyaları ilə öyündüyü, az qala həmin əşyalara tapındığı zamanın içindəyik. Belə bir mühitdə mənəvi olandan, kitab da bura daxildir, danışmaq belə artıqdır.

Bu abzası da mütaliə etməməyimizin üçüncü səbəbi hesab edin. Dünya gör-götür dünyasıdır. Gözünü açıb hamının puldan, sərvətdən danışdığını eşidən, maddi sərvəti bol olanların başa çəkildiyini, dəryaca ağlı olanların maddi yoxsulluğunun başına qaxınc edildiyini görən uşağa mənəvi zənginlik qaynağı saydığımız kitabı sevdirə bilərikmi? Belə bir mühitdə böyüyən uşağa kitab oxumağın fəzilətlərindən danışsaq bilirsinizmi bizə nə cavab verəcək? Onun cavabını təxmin etmək belə adamı vahimələndirir. Yəqin ki, cavab: "Siz oxuyub nə qazanmısınız, mən oxuyub nə qazanacam", – olacaq. O, qazanc deyərkən, yüzdə yüz maddi qazancı nəzərdə tutacaq. Bir parça uşaqdan alacağımız cavab bundan artıqmı olasıdır ki? Yenə sağ olsun, daş götürüb başımızı yarmır.

Gəldik mövzumuzun ən yağlı yerinə. Bunu kitabsızlaşmamızın başında duran səbəb kimi də təqdim etmək olar. Texnoloji yeniliklərin sürətli inkişafı, internet resurslarının məlumat bazasının hər ötən saniyədə daha da zənginləşməsi, sosial şəbəkələrin yağışdan sonrakı göbələk misalı artması kitabı bir mənəvi qaynaq kimi arxa plana ataraq, onu gərəksiz bir vasitəyə çevirməkdədir.

Bəşəriyyət virtual bir dünyanın içinə dalmış duruma düşməkdədir. Bəlkə də artıq o dünyanın içərisindədir, nədənsə mən yazmaq istəmirəm. Yəni belə də olması mümkündür.

Bir anda internet vasitəsilə istənilən kitabı endirmək su içimi qədər asanlaşıb. Yaxın keçmişdə dünyanın əlçatmaz saydığımız istənilən kitabxanasından istənilən mövzuda, istənilən dildə kitab endirib oxumaq imkanları yaranıb. Ona görə də, başda kitab olmaqla çap məhsullarına tələb azalıb. Dərsə girərkən, dərsdən çıxarkən əlində sinif jurnalı görməyə adət etdiyimiz müəllimi planşetində qeydlər aparan müəllimin əvəz etməsi qoyduğumuz problemin gerçəkliyini anlatmaq baxımından ən etibarlı tutalğacımızdır. Yaxın bir neçə il ərzində heç məktəbə, müəllimə ehtiyac qalmayacağını proqnozlaşdıranlar var. Artıq robot jurnalistlərin xəbər yazdığı, robotların dərs keçdiyi acı da olsa, bir gerçəkdir.

Başqa bir səbəb də deyim ki, mənzərə tam ətə-qana dolsun. Bir neçə on il əvvəl insan informasiyanı ağ-qara televizorlardan, xışıltısı qulaq batıran radiolardan, qəzet və jurnallardan alırdı. Mənəvi boşluğunu kitab oxumaqla, sovetin məsləhət bildiyi filmlərə baxmaqla, bunlar olmadıqda yaşlıların danışdığı nağılları, aşıqların söylədiyi dastanları dinləməklə doldururdu. Başqa alternativ yox idi. İndi məlumat qaynaqlarının sayı-hesabı bilinmir, gecə-gündüz fərqli kanalları, proqramları izləmək imkanları tükənməzdir. Bir roman əsasında çəkilmiş serialları seyr etmək üçün tamaşaçı illərini xərcləyir. Bir neçə saata oxuduğun bir romanın ekran həlli artıq aylardır, bəlkə də illərdir ki davam edir. İnanmırsınızsa yoxlaya bilərsiniz. İclal Aydının "Üç bacı" (türkcəsi "Üç kız kardeş") romanını oxuyun, sonra da neçənci bölümünün nümayiş etdirildiyini unutduğum serialı izləyin.

Belə demək mümkünsə, daş dövrü daşın yoxluğundan deyil, metalın daşı sıxışdırıb sıradan çıxarması ilə başa çatdı.

Artıq klassik kitabı da texnokitab bir küncə qısnayaraq, hər ötən gün öz meydanını genişləndirməkdədir. Kağızın icadına qədər insanlar daş, gil, papirus üzərində yazmırdımı? Kağız onları tarixin tozlu sandığına yığmadımı? Əlyazmaları çap maşını keçmişdə qalmış fakta çevirmədimi? Düzdür cüzi istisnalarla məhdud şəkildə bundan indi də istifadə olunur. İstisnalarısa hər zaman tapmaq mümkündür.

...Sonda biz formasını, şəklini dəyişmiş kitablar oxuyuruq deməkdən özümü saxlaya bilmirəm...

*Afiq Muxtaroğlu*

# CƏMİYYƏT VƏ ƏXLAQİ DƏYƏRLƏR



**Hacı Bəkiroğlu**

hacihaciyev@hotmail.com

Cəmiyyətimizi dərindən yaralayan, cəmiyyəti yıxıb yox edən və diqqətə alınması çox əhəmiyyət daşıyan bir şəxsiyyət problemi vardır. Bu problem cəmiyyətdəki əxlaqi çöküntünün səbəbidir. Əxlaqi sarsıntının ən sürətli yayıldığı zaman isə günümüzdə müşahidə edilməkdədir. İçki, qumar, fahişəlik, narkotik, yalan, iftira, adam aldatma faktorları artdıqca cəmiyyətdə mənəvi bir çöküntü başlayır. Əxlaqsızlığın gətirdiyi mənəvi hüzursuzluq insanlığı təhdid edir və bütün toplumu hüzursuz edir.

Cəmiyyəti bürüyən bu əxlaqi çöküntünün əsas səbəbi insanların dindən uzaq, heç bir əxlaqi dəyəri olmayan, heç bir şeyə inanmayan, heç bir şeyi və heç kəsi düşünməyən, yalnız özünü düşünən insan halına gəlmələridir.

Dürüstlük, sayğı, sevgi, yardımsevərlik, şəfqət, mərhəmət, təvazökarlıq kimi əxlaqi terminlər mənasını və dəyərlərini itirmişdir. Əxlaq çöküntüsünün təməlindəki əsas səbəb insanların mənəvi dəyərlərini itirmələri və dini dəyərlərdən uzaqlaşmalarıdır. Mənəvi dəyərlərini itirən insanlar dünyanı yaşana biləcək tək yer olaraq zənn edərlər və dünyada özləri üçün arzu və istəklərini təmin etməyə, mümkün olduqca mülk və məqam sahibi olmağa çalışarlar. Beləliklə, qısa ömürlərini qafil bir şəkildə keçirərlər. Bu qafillikləri də tək özlərinə deyil, ətraflarındakı insanlara da sirayət edər.

Əxlaqi dəyərlərin onlara heç bir fayda verməyəcəyini düşünən və yalnız öz faydaları üçün yaşamağa çalışan bu insanlar əxlaqlı insanları "saf" insanlar olaraq dəyərləndirirlər. Bu növ insanların yaşayış fəlsəfələrinin təməlini isə dünyadakı mənfəətləri prinsipi halına gəlir. Bu cür insanlar axirət gününə inanmadıqları üçün də haqsızlıq və zülm etməkdə heç bir hədd tanımazlar. Bununla da qalmayıb etdikləri əxlaqsızlıqları doğruymuş kimi göstərməyə səy göstərirlər ki, kimsə onları günahlandırmasın.

Dindən uzaq olmağın ən böyük təsirlərindən biri də bu tərz insanların sevgi, mərhəmət və hörmət kimi ali duyğulardan uzaq qalmalarıdır. Bu duyğuyla yaşayan insanlarda bir-birinə qarşı sevgi və mərhəmət olmadığı kimi yardımlaşma duyğuları da itkin düşmüş olur.

Xülasə, dini dəyərlərini itirmiş olan bir cəmiyyətdə hər cür əxlaqsızlıq, etibarsızlıq duyğuları ön plana gələr. Ailə dəyərləri öz aliliyini itirər, mərhəmət və insansevərlik yox olar. Zülm və fəlakətlərin sayı artar. Quran əxlaqıyla yaşanan cəmiyyətlərdə isə sadaladığımız mənfi xüsusiyyətlər müsbətə dönüşər və hüzur və sevgi dolu bir cəmiyyət meydana çıxmış olar.

Burada bir də onu vurğulamaq yerində olar ki, ailənin sağlam olması və övladlara verilən tərbiyənin valideynlər tərəfindən diqqətə alınması böyük əhəmiyyət daşıyır. Çünki təmiz bir şəkildə dünyaya gələn uşağı valideynlər tərbiyə edərək yaxşı və ya pis insan olmalarını təyin edirlər. Əgər ailədən gələn tərbiyə Quranı doğruldursa, təbii ki, bu insan müsbət xüsusiyyətlərə sahib olaraq Allahın insanı yaratma qayəsinə xidmət edərək onun razılığını qazanacaq. Yox, əgər tərbiyəsində şəxsi mənfəətləri qorumaq, insanlara qarşı kin və nifrət duyğuları aşılanıbsa, o zaman bu insandan pislikdən başqa bir şey gözləmək bihudədir.

# "YENİ YOL" GÜRCÜSTANIN SABİQ TƏHSİL VƏ ELM NAZİRİ TAMAR SANİKİDZENİN MÜSAHİBƏSİNİ TƏQDİM EDİR



Müəllimlərin universitet təhsili, baza əməkhaqqının mütləq artırılması, yeni kadrların hazırlanması və peşə inkişafına real dəstək – bunlar sabiq təhsil və elm naziri Tamar Sanikidzenin "edu.aris.ge" saytı ilə müsahibəsi zamanı vurğuladığı məqamlardır.

Tamar Sanikidze bu gün İnnovasiya, İnklüzivlik və Keyfiyyət – Gürcüstan I2Q (IBRD) layihəsinin icraçı direktoru vəzifəsini tutur və onun təhsil sistemində fəaliyyəti ali təhsillə əlaqədardır. 2014-cü ildə başladılmış müəllimlərin peşə tənzimləmələrinin məqsəd və prosesinə çox yaxşı bələddir. Həmin proses nəticəsində müəllim peşəsinə girməyə və karyera inkişafı sxeminin hazırlanmasına nail olub. Sabiq nazir illər ərzində sxemdə tez-tez həyata keçirilmiş dəyişikliklərə görə birmənalı şəkildə bu sistemin özünü doğrultduğunu deməkdə çətinlik çəkir, ancaq hesab edir ki, sxemin öz faydası var idi.

**– Tamar xanım, qısa sual və geniş cavabla başlayaq: müəllimlər üçün sxem nə yaratdı? Bu sxem onun hazırlanmasına qədərki dövrdə olmayan nələri təhsil sisteminə verdi? Tamar Sanikidze bugünkü baxışdan nə görür?**

– Gəlin bu məsələyə belə baxaq: bunun üzərində işləməyə niyə başladıq? Dövlətin bu qərarının öz izahı var.

Bu gün pedaqogika tibb, hüquq, baytarlıq və s. kimi tənzimlənən peşədir. Bu o deməkdir ki, təhsildə davamlı peşə inkişafına dövlət qoşulur və tənzimləyir. Beynəlxalq təcrübə də belədir. Tənzimləmə, təbii ki, sistemin yaradılması üçün ehtiyac duyurdu və biz dövlətin qərarı ilə işləməyə başladıq. Qanun müstəvisində tənzimləmələr yaradıldı, qanuna tabe aktlarla isə artıq həmin tənzimləmələrin icra mexanizmləri yaradıldı. Müəllimin fəaliyyətə başlaması, peşə inkişafı və karyerada irəliləmə sxemi də məhz onlar arasında idi. Ona qədər belə tənzimləmələrimiz olmayıb. Peşəyə daxil olmağı nəzərdə tuturam – hansı təhsillə müəllim olmaq olardı, davamlı peşə təhsili necə olmalı idi... Müxtəlif dövrlərdə qanunda dəyişikliklər edildi, amma bu mövzular açıq qalırdı. Bizim yanaşmamız belə idi ki, bunların hamısı sistemləşdirilsin və peşə tənzimləməsi ilə yanaşı olan tələblərə uyğun qaydaya gətirilsin.

2008, 2009, 2010-cu illərə nəzər salsaq görərik ki, sistemdə bu istiqamətdə hansı proseslər gedirdi. Qısa desək, tamamilə tənzimlənmirdi. Sistemi açdılar və müəllim olmaq istəyənləri, məktəb attestatı olanları (bu da yolverilən idi), yaxud peşə ixtisası, ali təhsili olanları sistemə buraxdılar. Vəziyyəti analiz edəndə gördük ki, məktəb attestatı ilə çox sayda müəllim var. Peşə ixtisası ilə müəyyən sayda müəllim var idi, eləcə də bir qisminin ali təhsili var idi, amma əksəriyyətinin ali pedaqoji təhsili yox idi. Buradan irəli gələrək, elə qərarlar qəbul edilməli idi ki, artıq sistemə daxil olmuş müəllimlərə kompetensiyalarını təsdiq etmək, peşəsində qalmaq və işləməyə davam etmək şəraiti yaratsın. Təsəvvür edin, məktəb attestatı, yəni ümumi təhsili olan çox sayda müəllim o zaman qüvvədə olan qayda ilə sertifikatlaşdırılmışdır. Onlar bunu bacardılar. Yəni dövlətin qoyduğu müəyyən şərti yerinə yetirdilər. Dövlət növbəti gün şərti dəyişib, başqa cür olmalı idi deyə bilməzdi axı?! Bu, qeyri-ciddidir və faydası da olmazdı. Çünki qeyd etdiyim kimi, belə müəllimlərin sayı kifayət qədər idi.

Sertifikatlaşdırma məsələsi də həll edilməli idi. Əvvəlki dövrdə sertifikat imtahanı var idi. Qaydaya görə, əgər pedaqoq imtahan verməsə sistemdən getməli idi. Buna uyğun olaraq bu məsələ də nəzərə alınmalı idi. Müəllimlərə portfolio yaratmaq və işlətmək öhdəliyi qoydular. Bu, müxtəlif nailiyyətlər və layihələr qazanmağı və s. nəzərdə tuturdu. Ancaq həmin portfolionun qiymətləndirilməsi vasitələrini yaratmağın qayğısına heç vaxt qalmayıblar. Müəllim nəticədə nə əldə edəcəyini, bu portfolionu nə üçün yaratdığını və işlətdiyini bilmirdi. Əvvəlki, ya indiki hakimiyyət olsun, hakimiyyət hakimiyyətdir və hamı onun qarşısında məsuliyyət daşıyır! Çünki bu məqsədləri əvvəlki hakmiyyət qoydu, yalnız buna görə müəllim nailiyyətlərini tanımaqdan imtina etməyəcəkdik ki? Bizi bu döngədən çıxaracaq mexanizm hazırladıq və sonra artıq müəyyən, razılaşdırılmış sistemlə işləməyə davam edəcəkdik. Məhz belə sistem yaradıldı – peşəyə daxil olmaq məqamı da, müəllimin peşə inkişafı da, qiymətləndirmə də və s. tənzimləndi. Pedaqoqların əvvəlki nailiyyətləri də itmədi və müəyyən məqamdan fəaliyyətlərinə davam edə bilərdilər.

**– Bu, birinci mərhələ idi...**

– Burada ən mühüm məqam sistemin dərin analiz əsasında işləməsi idi. Onda ən yaxşı beynəlxalq təcrübə də nəzərə alınmışdı. Beynəlxalq ekspertlərlə işləməyin izi ilə hökumət səviyyəsində daimi fəaliyyət göstərən komissiya yaratdıq. Komissiya ixtisaslı adamlardan ibarət idi. Burada universitet nümayəndələri, məktəb müəllimləri, direktorlar, parlament komitəsinin üzvləri, həmkarlar ittifaqı və s. var idi. Həmin komissiya çərçivəsində bu sistem hazırlandı. Bizim xarici həmkarlarımız eyni zamanda UNESCO-nun ekspertləri idilər və bu sxemi UNESCO komissiyasına tanıtdılar. Onlar hesab etdilər ki, hazırlanmış yanaşma ən yaxşı nümunələrdən biridir və onu bölüşməyə də başladılar.

Ancaq bunun hansı nəticə verməsi məsələsini götürsək, bir mühüm faktora görə, buna cavab verməkdə çətinlik çəkirəm. İlk olaraq yaradılmış və dövlətin beynəlxalq eskeprtlərə əsaslanaraq hazırladığı bu sistemin işləməsi cəmi bir il, il yarım davam edir. Sonra tətbiq etmə monitorinqi həyata keçirildi, qiymətləndirildi və qiymətləndirmədə bir az problemli hesab olunan bir komponent var idi. Bu, müəllimin qiymətləndirilməsi hissəsində kənar müşahidə ilə əlaqədar idi. Bu problemli hesab olunmadan, sərbəst şəkildə düzəldilə bilərdi. Amma bunun əvəzinə sxemdə bitmək bilməyən dəyişikliklərə başlanıldı və mənim bildiyimə görə, bu, artıq komissiya qaydası, ya beynəlxalq ekspertlərdən yararlanaraq baş vermirdi. Komissiya fəaliyyətini dayandırdı.

Bugünkü sxem çoxsaylı dəyişikliklərdən irəli gələrək qəbul edilmiş sistemdir və bu gün necə işlədiyi ilə bağlı mən qiymətləndirmə hesabatlarını görməmişəm. Nazirlik bu gün də inkişaf sisteminin real nəticə göstərəcəyi şəkilə salınması üzərində işləyir. Məktəblərdə təhsil keyfiyyətinin real olaraq artmasını nəzərdə tuturam və belə olan halda müəllimin real inkişafı da artacaq. Ancaq bu gün qüvvədə olan sənəd, sxem ilkin versiyadan çox fərqlənir. Hətta mənim fikrimcə, ortaq heç nəyləri yoxdur. Mən deyə bilmərəm ki, ilkin versiya yaxşı idi və indiki yaramır. Bunun qiymətləndirməsini görməmişəm, ancaq nəticələrə görə müzakirə etsək, bu istiqamətdə görüləsi çox iş var ki, bu sistem və yanaşma nəticə versin.

**– Aydındır və təəssüfedicidir ki, araşdırmalarımız yoxdur, illər sonra sxemlə əldə olunan nəticənin şagirdə çatıb-çatmadığını, onun effektivliyini bilmirik... Amma əgər sizin yuxarıda dediyiniz dəyişiklikləri nəzərə almasaq və bu dəyişiklikləri qiymətləndirməsək, nə deyə bilərik – bu sxem özünü doğrultdumu? Bu gün sizin üçün irəli getmiş, inkişaf etmiş pedaqoqlar varmı, 2014-cü ildən bu günə qədər nə baxımdan inkişaf ediblər?**

– İlk növbədə, sizin sualınıza sualla cavab verəcəm: bu gün müəllimlər peşə inkişafına fəal olaraq qoşulublarmı? – mənim fikrimcə, qoşulublar. Qoşulmaq, təbii ki, hamı üçün məcburidir və sxem çərçivəsində onların irəli çəkilməsi davam etdirilirmi? Bunu nəyə görə deyirəm – peşə inkişafı ilə yanaşı həmçinin müəllimlərin əməkhaqqı siyasətinin qismən də olsa qaydaya salınmasına cəhd göstərilmişdi. Müəllimin əməkhaqqı isə qismən nəticəyə, inkişafa bağlı olardı. Baza əməkhaqqı dəyişdirildi, əlavələr yarandı. Sxemin faydalarından biri odur ki, müəllimin əməkhaqqı siyasəti yaxşılaşdırıldı. Ancaq əgər siz soruşursunuz ki, bu baxımdan bu gün hansı nəticəmiz var, deyim ki, hələ də əhəmiyyətli dərəcədə təkmilləşdirilməlidir. Əlbəttə, dövlətin hansı resursunun olacağı və maliyyələşdirməyə necə müraciət edəcəyi nəzərə alınmalıdır. Birmənalı şəkildə yeganə bu müsbət tərəfimiz var idi.

Eləcə də düşünürəm ki, çox müəllimlər bu sxemdən çox yaxşı istifadə edib və kompetensiyalarını artırıblar. Saya baxsaq bu gün yüksək pillələrdə olan müəllim sayımız bu təşəbbüs başlayana qədər olduğundan daha artıqdır. Amma bir daha deyirəm, bunun yekunda şagirdə, nəticələrə, ümumiyyətlə, məktəbin yaxşılaşdırılmasına təsir göstərməsi üçün çox iş görülməlidir. Hətta deyim ki, tək peşə inkişafı ilə bunlara nail olunmayacaq.

**– Nəyi nəzərdə tutursunuz?**

– Düşünürəm ki, bu gün müəllimin peşəkar inkişafından çox onun universitet təhsilinə diqqət yetirilir. Müəllim təhsili proqramlarının keyfiyyətinin yaxşılaşdırılması və ümumilikdə müəllim təhsili siyasətinin təkmilləşdirilməsi ilə bilavasitə bağlı olan donor tərəfindən maliyyələşdirilən əsas layihədə müəyyən elementlər meydana çıxdı. Universitetlərdə müəllim hazırlığı proqramlarının yaradılmasına və bu proqramların faktiki icrasına başlanılmalıdır!

Bu gün dövlət universitetlərində müəllim hazırlığı proqramları var, ancaq ibtidai sinif müəllimləri üçündür. Bizdə fənn, fənn qrupları üzrə müəllimlər üçün universitet hazırlığı proqramları yoxdur və söhbət hansı ixtisasın artırılmasından gedir?! Bu gün elə bir vəziyyət yaranıb ki, universitetdə əsas və orta ixtisas üzrə müəllim hazırlığı proqramları yoxdur. Ona görə də yaxşı haldır ki, nazirlik bununla bağlı işləyir, bizim donorumuz var, bu işdə köməklik edir ki, universitet təhsilinə daha çox diqqət yetirək və ikinci hissə, müxtəlif ehtiyaclardan hələ də sistemdə qalan sertifikatlaşdırma yox, həqiqətən peşəkar inkişaf olsun. Sertifikatlaşdırma müxtəlif ehtiyaclardan irəli gələrək hələ də sistemdə qalır.

**– Müəllimlərin bu və ya digər şəkildə bacardığı sertifikatlaşdırma...**

– Bacarırlar, amma bizim bütün peşələrdə olduğu kimi mühüm inkişafa etirazımız varsa müvafiq yeni kadrlar hazırlanmalıdır.

**– Bu gün bizə qərardan xəbər vermirlər, amma deyəsən sistem rəhbərləri artıq müəllimin əməkhaqqının sxemə bağlanmasını istəmirlər, bu ehtimalı necə qiymətləndirirsiniz, düzgün yoldurmu?**

– Mən belə başa düşdüm ki, əməkhaqqı siyasətinin tənzimlənməsi gündəmdədir, amma təkcə peşəkar inkişafla bağlı deyil, ümumilikdə bu, məncə, heç də pis deyil. Baza maliyyələşdirilməsi artırılaraq düzəliş edilərsə, artım müvafiq olaraq daha nəzərə çarpacaq. Təhlillərimə görə, dövlət deyir ki, biz müəllimin əməkhaqqı siyasətini tənzimləməliyik və bu, təkcə peşəkarlığın artırılmasından asılı olmamalıdır.

**– Amma heç kim müəllimlərə deməyib ki, əsas əməkhaqqı artır, baş nazirin açıqlamasını belə başa düşməliyik? Müəllimlər də guman edirlər ki, nailiyyətlərinə baxmayaraq "başqaları ilə bərabərləşəcəklər" və bu, əldə olunan statusa verilən qiymət olmayacaq...**

– Baş nazirin mesajına gəldikdə, eşitdim ki, tam ştatlı müəllimin maaşı 500 lari artırılacaq, status, qeyri-status və sair müzakirələr aparılmadı, bu da onu göstərir ki, söhbət əsas və ya orta əməkhaqqıdan gedir. Bu mesaj mənə aydındır, baxmayaraq ki, əlbəttə, biz bu artımın nə demək olduğunu və necə baş verəcəyini daha çox aydınlaşdırmaq və daha yaxşı başa düşmək üçün gözləyirik. Biz yeni sistemə keçəndən əvvəl dövlətin atdığı addımlar mənə belə düşünməyə imkan verir ki, müəllim əvvəlki attestasiya çərçivəsində nəyə nail olubsa, heç kim heç nə itirməyib. Əksinə, yeni sistemlə yeni əlavələr və imkanlar yarandı. Ona görə də, düşünmürəm ki, dövlət hansısa formada müəllimlərin uğurlarını aşağılamağa və ya gözdən salmağa hazır olsun.

**– Əməkhaqqı siyasətini təkmilləşdirmək üçün necə model seçərdiniz, Tamar Sanikidze nə edərdi, sxemi dəyişməkdən, təkmilləşdirməkdən, ləğv etməkdən başlayardınız, yoxsa...?**

– Böyük ölçüdə bütün bunlar hələ də dövlətin hansı resurslara malik olmasından, onların bu gün, sabah, o biri gün hansı resurslardan istifadə edə biləcəyindən və s. asılıdır. Bu planlaşdırılmalı bir prosesdir. Bir daha deyirəm ki, çoxillik planlarımızda da görünən universitet müəllimlərinin təhsilinə daha çox diqqət yetirilməsinə istinad edən bu son qərarları düzgün hesab edirəm və yaxşı haldır ki, bu mərhələyə çatmışıq.

Əməkhaqqı siyasətinə gəldikdə isə, resursları elə ayırmaq lazımdır ki, bu, mütləq əsas əməkhaqqına təsir etsin, əks halda, sadəcə olaraq, hesab edirəm ki, effektli olmayacaq, çünki əməkhaqqı, ümumiyyətlə, azdır... Bəli, ciddi dəyişikliklər var, lakin tendensiya davam etdirilməlidir və mən həqiqətən ümid edirəm, inanıram ki, bu davam edəcək. Həmçinin müəyyən bir əməkhaqqı artımı peşəkar inkişafa da bağlı ola bilər, lakin müəllim yalnız "yenə nəsə artırım" sözünə istiqamətlənməməlidir... Bu da pis deyil və müəllim mütləq özünün peşəkar inkişafı ilə maraqlanmalıdır... Lakin orta zəmin tapmaq vacibdir. Balans qorunmalıdır ki, peşəkar inkişaf üçün motivasiyanı müəllimin öhdəsinə buraxaq, lakin onun fəaliyyətinin kompensasiyası və mükafatlandırılması olan ilkin təklif normal, bu peşə üçün məqbul olmalıdır. Hər hansı bir peşədə iş təcrübəsi həmişə bonuslarla əlaqədardır, bu, ümumi bir korporativ təcrübədir.

**– Söhbətimizin sonunda danışdığınız bütün amilləri, o cümlədən müəllim hazırlığı üçün təhsil proqramlarının yaradılması və təkmilləşdirilməsi zərurəti və fərqli əməkhaqqı siyasətinin zəruriliyini nəzərə alaraq deyə bilərikmi ki, sxem öz işini görüb və tükənib?**

– Qismən. Deyə bilərəm ki, müsbət cəhətləri var idi, özümüzü aldada bilmərik, qüsurlar da var. İnkişaf elementləri daxil olur ki, bu da çox lazımdır. Demək istəyirəm ki, sistemi təkmilləşdirmək, yeni və ixtisaslı kadrlar hazırlamaq üçün müəllimlərin universitet təhsilinə baxmasaq, yalnız ixtisasartırma sxemindən "asılı olmaq" uğurlu olmayacaq.

*Mənbə: "edu.aris.ge".*
Gürcü dilindən tərcümə etdi:
**Aynurə Əliyeva**

# MƏNİM BİTMƏYƏN NAĞILLARIM



Uşaqlıqda heç sevməzdim divlərin, əjdahaların, keçəlin nağıllarını. Ən xoşladığım nənəmin danışdığı həqiqi müharibə nağılları idi – özü şahid olduğu, yaşadığı tarixi nağıllar...

Nənəm uşaqlarla birlikdə dəmir yığar, kolxozda işləyər, corab toxuyarmış, təki cəbhəyə köməyi dəysin. Poçtalyona kömək edib məktub çatdırardı, yaza bilməyənlərin yerinə məktub yazardı, oxuya bilməyənlərə məktubunu oxuyardı...

Cəbhədən doğması gələnin sevincindən, hər gün mərkəzi radionun başına yığılıb xəbər gözlədiklərindən, yaxşı xəbərlərin sevincindən və sonda nənəmin "urra" deyərək qələbə sevincindən elə danışardı, sanki indicə yaşayırdı bu hissləri...

Nənəmin böyük kədərlə danışdığı hekayələrin sonunda sanki indicə eşidibmiş kimi yaşadığı qələbə sevinci o qədər təbii idi ki, mənim də nənəmlə birgə gözüm dolar, bəzən də ağlayardıq. Sonda nənəm deyərdi: "Göydən gələn almaların üçünü də mənim ağıllı nəvəmə verirəm ki, o da öz nəvələrinə versin".

İllər ötdükcə nənəmin danışdıqlarından çoxunun film, hekayələrdən olduğunu bilsəm də mənim qəhrəmanlıq xəyallarım bitmirdi. Özümü gah Zoya kimi məğrur, gah Mehdi kimi qorxmaz, gah da "Əsgər atası" kimi arxa cəbhədən səngərlərə gedən xəyal edirdim.

Bütün uşaqlar kimi tez böyümək istəyirdim. İstəyirdim çoxlu nəvələrim olsun, mən də qoca nənə olum, başıma nənəm kimi dəhrəburunlu ağ kəlağayı bağlayım, nəvələrimə nağıl danışım. Kövrələ-kövrələ, həyəcanla qəhrəmanlardan danışım, sonda da qələbə sevincinə nəvələrimlə birgə sevinək və kövrələk...

Amma mənim nəvələrimə danışacaq heç bir hekayəm yox idi axı. Mən dünya dərdlərindən bixəbər qayğısız, xoşbəx bir uşaq idim. Həyata oxuduğum kitablardan, izlədiyim filmlərdən və eşitdiklərim, gördüklərim çərçivəsindən baxırdım.

Bu xoşbəxtliyim çox çəkmədi. Bir gün Vətənimizin açıq səmasında buludlar toqquşdu, hər yer qaraldı, yad əllər Vətən torpağımıza məkrli niyyətlərlə uzandı. Az yaşımda müharibəyə bənzər hadisələr mənim dərk etmədiyim hadisələr oldu. Olacaqları ilə torpaqlarımızın müəyyən sahəsini işğal etdilər. Vətənimizin bütövlüyü üçün neçə-neçə oğullar fəda oldular, amma sonu məğlubiyyət idi deyə mənim qurduğum nağıllar nənəmin nağılları kimi alınmırdı. Mən inanırdım ki, mütləq mən də nənəm kimi nağıllar danışacaq bir tarixi yaşayacam. O arzularla mən ana oldum, balalarıma hər layla çalarkən kövrəlirdim, inşallah, sizin balalarınıza nənəmin nağıllarından danışacam deyirdim. O gün yaxında olacaq düşünürdüm, amma gözlədiyim yaxın xeyli çəkdi...

Bir gün qara buludlar parçalandı, gecə zülmətində Günəş parladı. Az zamanda tariximiz neçə-neçə qəhrəmanlıqlara şahid oldu. Çağırışsız könüllü döyüşən oğulların rəşadəti 44+1 gündə 30 ilin qisasını aldı. Mən 44 gün qulağı səsdə ağzıbir millətimi gördüm, balasını Vətənə qurban deyən anaları gördüm, "Təki Vətən yaşasın" deyən ataları gördüm. Xudayarın səsindəki nalənin bütün səngərlərdə həmrəyini gördüm, nələr gördüm, nələr yaşadım...

Zəfəri zamanında yaşamağın, qalib olmağın, hətta qalibiyyəti ümummilli yaşamağın necə bir hiss olduğunu mən indi anladım. Nənəmin kövrələrək necə radionun başına yığıldıqlarını, internetsiz zamanda səsucaldıcının ətrafında yaşanan o anları izah edən səsinin titrəyişini, kövrəkliyini indi anlayırdım.

Nənəm yad dövlətin sevincini yaşayaraq sevinirmiş, amma mən öz millətimin sevinciylə nəfəs alırdım, kədəriylə kədərlənib, uğuruna birgə kövrəlirdim. Mənim xatirələrim daha canlı idi.

Mənim danışacaq nə qədər qəhrəmanlarım vardı. Mənim əsirlik yaşamış xarıbülbülüm vardı, mənim qayalarıyla əzəmət yaşadan Şuşam vardı, mənim danışacaq nələrim, nələrim vardı. Mən laylamı Xudayar təsnifinə kökləyəcəkdim, mən də nəvələrimlə birlikdə kövrələcəkdim...

Bax beləcə mən nənə olacağım zamanı daha qürurla, başıuca, dəhrəburun-butalı kəlağayıyla gözləyirəm... Bu yol mənim xəyalımda yaratdığım, uşaqlıqdan gəldiyim yoldur!

Başıuca, alnıaçıq bir qürurla gözləyirəm nənə olacağım zamanı. Məndən nağıl istəyən nəvələrimə deməyəcəm: "Hamısını indi desəm nağıl qalmaz sabaha". Mənim nağıllarım heç bitməyəcək. Mən nəvələrimə həsrətin qəhrəmanlıq qarşısında itib yox olmasından, bərpa olan sərhədimdən danışacaqdım, torpağımızı qanıyla suvaran oğullarımızdan danışacaqdım, bir də, bu yolu cızan, cızdıran baş qəhrəmandan danışacaqdım – Dəmir yumruğun simurq quşu kimi od saçmağından, Qarabağ Azərbaycandır! hökmünün lərzəsindən danşacaqdım.

Mənim nağılımın da sonunda gələn almalar Vətənimin qəhrəman oğullarına çatacaqdı.

**Esmira Ələkbərli**

*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# SÜRƏTLİ MƏSULİYYƏTSİZLİK



Seymur Baycanın "Mənim mübarizəm" adlı kitabında oxumuşam, yazır: "Jurnalistika insanı iki seçim arasında qoyur: dənizdə boğulan birinə ya kömək edib həyatını xilas eləməlisən, ya da onun batmasını gözləyib bu haqda xəbər hazırlamalısan". İlk baxışda sadə seçim kimi gəlir insana və təbii ki, boğulana kömək edərdim deyə düşünür. Amma bilmirəm, bəlkə işləyən zaman düşüncə tərzi dəyişir insanın. Tək düşüncə tərzi yox, özü də dəyişir. Necə ki sürücülük vəsiqəsi alandan sonra bəzi insanlar dəyişir. Bəlkə bəzi jurnalistlər ikinci variantı seçir. Hələ bunu bilmirəm. Bildiyim, daha doğrusu, öyrənməyə başladığım yeni şey bəzən insanın bu peşənin ağırlığı altında qalmasıdır. Bəlkə kiminsə batmasını görməyib, amma yenə də bu acı xəbərdən yazır. Necə ki indi mən yazıram.

Nə az, nə çox, cəmi bir ay içində iki gəncin ölümü məni yenə yazmağa vadar edir. Amma bu dəfə keçən dəfəki qədər hərarətli yazmıram. İnsanın içi qan ağlayan zaman hərarətli sözlər sönürmüş. Necə ki bir gəncin həyat işığı söndü. Bəzən kiminsə həyatını xilas eləmək bizim əlimizdə deyil, kiminsə ayağının altındakı qaz pedalında olur – qəza törədən o sürücü kimi.

Bilmirəm, insanlarda bu sürət sevgisi haradan gəlir, niyə sürət onlara bu qədər zövq verir, hara tələsirlər, niyə özlərində məsuliyyət hissi daşımırlar? Başqasını keçdim, öz canlarını heçmi sevmirlər? Niyə bizdə yol qaydalarına əməl etmək müvəqqəti bir prosesdir? Niyə bəziləri sürücülük vəsiqəsi aldıqdan sonra bu qaydaları unudur? Niyə on altı yaşında valideynin icazəsi ilə sürücülük vəsiqəsi almaq mümkündür?..

Niyəsini deyim sizə. Ona görə ki, bu bizim əskik, çatışmayan cəhətimizdir. Əvvəlcə tək sürücülük vəsiqəsi alarkən yox, bütün işlərdə qayda-qanunları yaxşıca əzbərləyib öyrənirik. Amma istədiyimiz şeyi əldə edəndən sonra, sıra öyrəndiklərimizi icra etməyə çatanda, öz arzu və istəyimizlə bundan imtina edirik. Sürücülük vəsiqəsini on altı yaşında almağın mümkün olduğuna gəldikdə isə onu deyə bilərəm ki, bəzi atalar üçün oğullarının o kağız parçasına sahib olması özü "qürur verici" bir hissdir, el arasında baş ucalığıdır. Onlar üçün yaşın fərqi yoxdur. Uşağı velosiped sürən yaşında qucağında otuzdurub maşın idarə etməyi öyrədən atanın oğlu hansı qaydalara əməl etməlidir. Mənə qalsa on səkkiz yaş belə bunun üçün azdır. Oğlanlar üçün on səkkiz yaşa çatmaq həddi-büluğa çatmaq deyil, sürücülük vəsiqəsi almaq, sonra rahatlıqla maşın sürmək deməkdir; yolun qırağında tanış məhlə uşağını, yaxud gözəl bir qız gördükdə qaza basıb yanından sürətlə keçmək deməkdir. Qoy desinlər filankəs "bomba oğlandır". Onlar üçün yol qaydalarını və nişanlarını əzbərləmək "teoriya" imtahanı keçmək üçün lazımdır.

Maşın insanların uzaq məsafələri qət etməsi üçün icad olunub, amma biz onu kimisə qürurlandırmaq, dost-tanışın arasında başı uca olmaq, kiminsə xoşuna gəlmək üçün bir vasitə sayırıq. Təəssüflər olsun ki, bəziləri də onunla can alır... Sürücülərə bu qədər.

İndi gələk piyadalara. Yol hərəkəti qaydalarının demək olar ki hamısı piyadaların yolda təhlükəsiz hərəkəti üçün nəzərdə tutulub. Maşını sürətli idarə edən sürücülər qədər piyadalar da öz canlarını düşünmürlər. Yeraltı və yerüstü piyada keçidi, piyada işıqforu sırf piyadanın rahat və təhlükəsiz hərəkəti üçün yaradılıb. Lakin biz piyada keçidini görmürük, yeraltı keçidlərdən göyərti satmaq üçün ideal yer kimi istifadə edirik. Bizim nə yerüstü keçidin pilləkənlərini çıxmağa həvəsimiz, nə də piyadalar üçün nəzərdə tutulmuş işıqforun yaşıl işığının yanmasını gözləməyə səbrimiz var. Sürücülər kimi piyadalar da tələsirlər. Bəzən sırf onların məsuliyyətsizliyi üzündən qəzalar baş verir. Qaydalara əməl edən sürücünün həyatını bəzən məhz piyadalar puç edir – əlində telefon, qulağında qulaqlıq asfaltın ortasıyla yolun o biri tərəfinə keçən piyadalar.

Sürücülük imtahanları getdikcə çətinləşir ki, bəlkə insanlar daha çox məsuliyyətli olalar. Bir az vəsiqəni almaq üçün yaş artsa heç pis olmaz. Sürücüdə məsuliyyət hissi yoxdursa yaş önəmli deyil. Piyada olmaq üçünsə yaş həddi yoxdur. Bir az yol və vaxt uzansa heç nə olmaz. Təki həyat qısalmasın.

Sonda tək onu demək istəyirəm ki, Allah uzaq eləsin, əgər qəza baş versə siz birinci variantı seçib kiminsə həyatını xilas edənlərdən olun ki, bu cür acı xəbərlərin sayı azalsın.

**Çiyalə Osmanova**

*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# YARI YOLDA QALMIŞ ÖMÜR



Elə insanlar vardır ki, ölüm xəbərini alsanız belə öldüyünə inanmazsınız. Özünüz özünüzə "yox, ölməmişdir", "səhv başa düşmüsən", "yaralı olar, xəstəxanadadır indi" deyə cavablar verərsiniz.

Mayanın – itirilmiş bir gənc qızın, övladın, tələbənin, dostun arxasından yazı yazmaq... Kəlmələrimin kifayətsiz qaldığı, cümlələrimin bir-birinə bağlana bilmədiyi, boğazımda bir şeyin düyünlənib qaldığı andayam...

Nəfəs ala bilmədən hıçqıra-hıçqıra ağlayaraq onu soyuq məzəra yola saldıq. Ölüm onu bizdən aldı – insanoğlunun var olduğu gündən bəri çarəsini tapa bilmədiyi, boyun əydiyi ölüm...

19-20 yaş hamının xəyyalar qurduğu, özünə hədəflər seçdiyi, nələrisə arzuladığı yaşdır. Universiteti bitirib işləmək, təhsili davam etdirmək, hətta lap bekar gəzmək istədiyi yaşdır. Ömrünün çiçəklənən dövründə olan bir həmyaşıdımız, gələcəyi parlaq olan, hədəfləri, xəyalları olan biri bu gün aramızda yoxdur artıq. Xəyallarını yarımçıq qoyub getdi bu dünyadan. Kim bilir, səhər evdən çıxarkən hansı ümidlərlə çıxmışdı, axşam evə qayıdarkən etməli olduqlarını düşünərək, bir ay, beş ay, hətta illər sonra olacaqları planlaşdırırdı. Haradan biləydi çıxdığı qapıdan bir daha içəri girməyəcək... Valideyni, dostları, sevdikləri ona son dəfə sarıldığını bilsəydilər daha bərk qucaqlayardılar. Bilsəydik sonuncu dəfə görüşürük, hələ vaxt yoxdur, başqa gün görüşərik deməzdik. Budur, vaxt var indi, amma görüşmək istədiyimiz burada yoxdur, əbədiyyən yoxdur...

Bu dünyada hər birimizin xəyalları var. Hansı birimiz ilk öncə məktəbi bitirməyi, sonra ali məktəbə qəbul olmağı, işləməyi, ailə qurmağı, qocalmağı xəyal etməmişik ki?.. Onun da çox gözəl xəyalları var idi. Həmişə bütün dünya məni tanısın deyərdi. Hər kəs mənim haqqımda danışsın, etdiklərimlə, nail olduqlarımla tanısın deyərdi. Amma bu gün o xəyalların gerçəkləşməyəcəyini bilmək çox ağırdır. Yaşamağı onun qədər sevən, həyata dolu-dolu gözlərlə baxan birini tanımırdım mən. Ancaq ölmək, bu dünyanı tərk etmək, xəyallarını yarıda qoymaq onun əlində olmadı...

Yol-nəqliyyat hadisələri nəticəsində hər il dünyada 1,3 milyon insan həyatını itirir, 50 milyona qədəri isə xəsarət alır. Yol-nəqliyyat qəzaları dünyada 10-25 yaşlı insanların əsas ölüm səbəblərindən biridir. Hər il 25 yaşadək 400 min gənc yol-nəqliyyat qəzaları zamanı həlak olur. Bu da gündə təxminən 1000 nəfər deməkdir.

Yol qəzalarında həlak olanların demək olar ki, yarısı piyadalardır. Bütün qəzaların 37 faizi məhz sürət həddinin aşılması səbəbindən baş verir. Sürətin aşılması, sərxoş halda nəqliyyat vasitəsinin idarə edilməsi, təhlükəsizlik kəmərlərindən istifadə edilməməsi kimi faktorlar yol-nəqliyyat hadisələrində insanların zərər görməsinə, ölümünə səbəb olur.

Düşünürəm ki, əksər hallarda dəhşətli sonluqlarla nəticələnən qəzaların səbəbi asılılıqdır. Avtomobili yüksək sürətlə idarə etmək əvvəlcə həvəs, sonradan isə asılılıq olur. Necə ki insanlar zərərli olduğunu bilərək tütün məmulatlarına, alkoqollu içkilərə, narkotik maddələrə əvvəlcə həvəs göstərib, sonradan asılı hala düşürlər. Zənnimcə, avtomobil idarə edərkən yol hərəkəti qaydalarını pozanlar, sürət həddini aşanlar da bu asılılıqdan əziyyət çəkirlər.

Əsasən də gənc oğlanlar bir-birləri ilə kimin daha güclü maşın sürdüyü barədə mübahisələr, zarafatlar edib "yarışarlar", nəticədə ya canlarına, ya da mallarına ziyan dəyər. Maşından çıxan tüstü-duman sanki onlara ləzzət edir, xoşbəxtlik hissi verir. Bunu nəticəsini düşünmədən edirlər, öz həvəsləri üçün başqasının həyatını qurban edirlər. Bir anlıq bir həvəs üçün evdən nə ümidlərlə küçəyə çıxan, sabah üçün planları olan, xəyallarla yaşayan, həyata sevinc dolu gözlərlə baxanların həyata gözlərini əbədi bağlamaqlarına səbəb olurlar.

Yol qəzalarında həlak olanlar əksər hallarda kor təsadüf və insan səhvi nəticəsində vaxtından əvvəl həyatla vidalaşırlar. Bir çox hallarda bu qəzalar baş verməyə bilərdi. Həlak olanlar da bu gün yaxın və doğmaları ilə birgə olardılar. Hər birimiz – istər sürücü, istər piyada, istərsə də sərnişin olaraq məsuliyyətimizi dərk etməliyik. Ancaq bizlər dərk etmək istəmirik, daha doğrusu özmüzü dərk etməyə məcbur etmirik. Həyatı özümüz, sevdiklərimiz üçün, arzularımız, xəyallarımız üçün yaşayırıq, ancaq bunu da unutmamalıyıq: hər kəs bu dünyanı kiməsə görə, nəyəsə görə yaşayır, insan bu dünyada yalnız özünü düşünməməlidir.

Unutmayaq, hər birimiz bu dünyada faniyik. Bizim etdiymiz hər hansı kiçik bir səhv bir gəncin, bir uşağın, bir azyaşlının, yaxud da hər hansı bir canlının ölümünə səbəb ola bilər. Çalışaq diqqətli olaq, çünki gedənlər bir daha geri gəlmirlər, sadəcə göz yaşları və gözəl xatirələr qalır.

Səni heç bir zaman unutmayacağıq, Mayam! – Gülərkən batan qəmzəni, o gözəl gözlərindəki işığı... Hər zaman xatirələrimizdə, yaddaşımızda ən gözəl şəkildə qalacaqsan. Kaş yanımızda olaydın, xatirələrimizdə deyil... Bir gün görüşmək ümidi ilə, cənnət mələyimiz, göy üzünün ən gözəl ulduzu, daima qəlbimizdə qalacaqsan...

**Aytən Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin Dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# YENƏ BİR DİQQƏTSİZLİK BİR ÖMRƏ QALİB GƏLDİ



Heç birimizin bu günə və sabaha sağ qalacağımız üçün sığortası yoxdur. Nə baş verəcəyini əvvəlcədən bilmirik. Gələcəyimizə dair qurduğumuz planlar, xəyallar bəzən bir saniyə içində puç ola bilir. Bəlkə də həyatda tək gerçək ölümdür. Axı ölüm də həyatımızın bir parçasıdır.

Hər birimizin bu dünyada yaşamaq üçün müəyyən bir zaman dilimi var. Bəzilərimiz bu vaxtı dəqiqə və saniyələrinə kimi planlaşdıraraq yaşayırıq. Bəzilərimiz isə əksinə – həyatı gedişatına buraxırıq. Amma bəziləri üçün həyat heç də planlaşdırdığı kimi olmur.

Bəzən gözləmədiyimiz bir anda baş verən hadisə bizə həyatın nə qədər qısa olduğunu yada salır. Mən bunu keçdiyimiz günlərdə daha yaxşı başa düşdüm. Düzdür, həyatı dolu-dolu yaşamağa çalışıram, amma ətrafımda baş verən hadisələr buna imkan vermir. Hər gün yeni bir xəbər, yeni bir dəhşətli qəza xəbərləri və daha nələri eşitdikcə çox vaxt boşu-boşuna vaxt keçirdiyimi düşünürəm.

Çoxlarımız sosial şəbəkələrdən istifadə edirik. Yeniliklərdən xəbərdar oluruq... O gün kaş telefonu əlimə almayaydım. Səhər telefonda sosial şəbəkələrdə yaxınlarımın paylaşdıqlarına baxırdım. Həmin gün hər kəs o qız haqqında yazırdı. Onun şəklinə baxdıqda inana bilmədim. Bilmirəm bu hissi necə ifadə edim. Məgər ölüm, dünyadan köçüb getmək bu qədər asandırmı?..

Sosial şəbəkələrdə, xəbər saytlarında avtomobil qəzası nəticəsində universitet tələbəsi olan gənc qızın həyatını itirməsi hamını kədərləndirdi. Qızı tanıyırdım və salam-sağolumuz var idi. Hələ də onun həyatda olmamağına inana bilmirəm. Xəyalları, arzuları var idi...

Aradan 1-2 gün keçdikdən sonra yenə başqa bir avtomobil qəzası baş verdi. Bu dəfə vəfat edən gənc oğlan idi. Kim bilir, o nə xəyallar qurmuşdur, nə arzuları var idi...

Bu gənclər bəlkə də gələcəkdə tanınmış şəxslərdən olacaqdılar. Amma qismət deyilmiş. Bizim belə hadisələrdə dediyimiz, deyə bildiyimiz tək şey budur: "qismət deyilmiş", "onun da alın yazısı oraya qədər imiş"... Dilə necə də asan gəlir. Necə də "qismət" sözünü ağız dolusu ilə işlədirik. Bir şey olan kimi həmin dəqiqə adını "qismət" qoyuruq.

Amma düşünmürük ki, bu nə zamana kimi belə olacaq. Bu qədər avtomobil qəzaları baş verir. Artıq bu avtomobil qəzaları da dəb halına gəlib. Buna DUR deməyin vaxtı nə zaman gələcək? Daha necə belə gənclər həyatını itirəcəklər? Tək gənclər deyil, o gəncin yerində uşaq, anamız, atamız, nənəmiz, babamız, biz də ola bilərdik...

Piyadanı maşınla vurana 5-6 il həbs cəzası verilir. Bəs bu 5-6 il həbs cəzası vəfat edən şəxsi geri gətirəcəkmi? Əlbəttə ki, xeyir. Düzdür, bəlkə digər sürücülərə bu dərs olacaq. Amma digər sürücülərə dərs olsun deyə daha necə canlar qurban getməlidir. Olmazmı bu qəzaların baş verməməsi üçün başqa həll yolları tapıla, tədbirlər görülə. Axı nə vaxta kimi bir diqqətsizlik bir ömürə qalib gələcək?!.

**Validə Fətullayeva**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

Artıq qeyd etdiyim kimi, əsərin süjet inkişafı kəsiyində diqqət çəkəsi yer tutan "Koroğlu"nun qoşqularına gəldikdə artıq tamamilə formalaşmış forma və ritmin səviyyəsi vardır; beytin cədvəl bünyəsi şeirin təbiətinə, ona qarşı irəli sürülən tələblərə tamamilə uyğun gəlir.

Qoşqunun mikrosistemində mühüm yer tutan və bu gün də onun "ayrılmaz hissəsini" təşkil edən, onun nəsrə qədər buraxılmasına əsaslı şəkildə zidd çıxan ritm ilə başlayaq. Ümumiyyətlə, ədəbiyyatşünaslıqda ritmin müəyyən edilməsi zamanı fərqli baxış mövcuddur və bu günə kimi ritmin "universal müəyyən edilməsinə" nail olunmamışdır. Lakin bu dəfə Yaxın Şərq və ələlxüsus türkdilli şair aləmində necə müzakirə olunması məni daha çox maraqlandırır.

Hər şeydən öncə qeyd etməliyəm ki, türk-Azərbaycan ədəbiyyatşünaslığında ritmi anlamaq və izah etmək fərqlidir: o, klassik, divan ədəbiyyatında başqa cür başa düşülür və o, folkloru başqa cür dərk edir. Birinci halda ritm kəskin kanonik çərçivəyə salınmışdır, folklorda isə kanonik qaydalardan və ehkamlardan nisbətən azaddır, bu da tamamilə təbiidir. Elə burada vurğulayıram ki, bu iki baxış dairəsi arasında orta istiqamət, xalq ədəbiyyatından qoparmağa cəhd edən aşiq-dərviş cərəyanı vardır. Lakin müəyyən baxış dairəsinə görə, klassik və yaxud divan ədəbiyyatında hökm sürən tənzimləmə nəzərə alınmalıdır.

Elə burada onu da vurğulamalıyam ki, divan ədəbiyyatında ritmin mikrostrukturunun müəyyən edilməsi ərəb və sonra farsın ritm nəzəriyyəsinə, konsepsiyasına bütövlüklə uyğun gəlir. Bu nəzəriyyələr barədə müzakirə aparmaq niyyətində deyiləm, çünki o, mənim axtarış sahəmdə daha çox genişliyi, konkretliyi bizdən uzaqlaşdırar. Divan şairlərinin və aşıqların şeir yazan zaman müraciət etdiyi yalnız adi qaydaları qeyd edəcəyəm:

a) Divan ədəbiyyatı ritmin əsasən ritm sözünün əsasına məxsus olan hərfi vahidi hesab edirdi, sonra isə affikslərin, sözlərin təkrarlanmasını rədif kimi dərk edirdilər və eləcə də adlandırırdılar.

b) Ritm sözləri "qrammatik qohumluğa" uyğun olaraq seçilməli idi ki, bu da növbəti cür əks olunmalı idi: isim, istərsə ritm adı bütün növbəti beytdə isim olmalı idi; əgər feil idisə hər yerdə feil olmalı idi və sair.

c) Ritmləşdirmə zamanı akustikaya və hərflərin bənzərliyinə deyil, cədvəl təsvirinə diqqət yetirilirdi.

ç) Ritm hərflərinin miqdarına diqqət yetirilirdi. Müvafiq olaraq, əgər ritm vahidi bir hərf idisə – rəvi, adi ritm adlandırırdılar. Əgər başqa hərflər də uyğun gəlirdisə onu nizama salınmış ritm adlandırırdılar.

Sonra türkdilli şairliyində ritm üç növ olaraq təqdim edilir:

a) Yarım ritm: yalnız bir samitli ritm ünsürü;

b) Tam ritm: bir saitli və bir samitli və yaxud da ərəb və farsın uzun saiti ilə ritmləşdirilmiş vahid;

c) Zəngin ritm: ritm sözü birdən artıq saiti və samiti, ya da ərəb-farsın uzun sait və samitini əhatə edir.

Eləcə də ritmik sözlər yazılı və qrafik şəkildə bir-birinə uyğun gəldiyi cinaslı ritm yayılmışdır, lakin fikir olaraq bir-birindən fərqlənir.

Elə burada mütləq ritm pozisiyalarında mövcud sözün kökündən sonra bir və həmin affikslərin, sözlərin və ya sözlər qrupunun təkrarlanması, bilavasitə ritm konstruksiyası ilə əlaqədar olan rədif qeyd edilməlidir. Qısası, rədif ritm ünsürünün avazlılığını gücləndirir və fikrin vurğulandırılmasını həyata keçirir. Elə burada qeyd etməyim yerinə düşər: ritm strukturunun nəzəri hissəsi şeiri söyləyən zaman, ola bilər, müəyyən mənada şairin boynuna düşsün, lakin oxucunu, dinləyicini ritm ünsürünün əsası hərfin olub-olmaması tamamilə maraqlandırmır və rədiflə gücləndirilmiş ritm ünsürləri konstruksiyasını bir bütöv not olaraq dərk edir ki, ekstrakontekst səviyyəsində güclü emosiyalı dalğanı əmələ gətirir.

Ritmin mikrostrukturunu müzakirə edəndə həmçinin bu və ya digər qoşqunun genetik mənşəyinə diqqət ediləsidir. Daha doğrusu, anlamalıyıq ki, bu əsər divana və yaxud klassik ədəbiyyata məxsusdur, yoxsa o, aşıq-dərviş və ya xalq folklorunun bədii düşüncəsinin nəticəsidir. Bunu ona görə qeyd edirəm ki, təhlil olunan əsərin bütün şeirləri aşıq ədəbiyyatına məxsusdur, bu da, artıq qeyd etdiyim kimi, klassik, divan ədəbiyyatından, eləcə də xalq yaradıcılığından fərqlənir. Qısası, əgər belə demək mümkünsə, onun kökləri folklor ağuşundan qidalanıb, lakin onun bəhrəsi bir növ klassik estetik baxış dairəsi ilə və təbiəti ilə şəklini dəyişmişdir. Belə ki bu qəhrəmanlıq eposunda təqdim olunan qoşquların mikrosistemi heç də az olmayaraq divan ədəbiyyatının ritm konsepsiyasını bizə xatırladır. Lakin bu sonuncu çox hallarda heçə sayılmışdır və mövcud kanonik qaydaların çərçivəsi də pozulmuşdur, bu da əsasən mahnı üçün yaradılan aşıq qoşqusu üçün tamamilə təbiidir.

Bu məsələnin müzakirəsi zamanı söz uzanar, buna görə də kəsə deyəcəyəm, qarşıdakı eposun qoşqusunun ritmik konstruksiyası dolğundur və yuxarıda xatırlanan ritmin hər üç növünə uyğun gəlir. Bir neçə nümunə üzərində dayanacağam. Götürək elə üç bənddən ibarət olan ilk qoşqunu:

**Məndən salam olsun əcəm oğluna,**
**Meydana girəndə, meydan mənimdi!**
**Qıratım köhləndi, özüm qəhrəman,**
**Çalaram qılıncı, düşman mənimdi!**

**Meydana girəndə meydan tanıyan,**
**Haqqın vergisinə mən də qanıyam;**
**Bir igidəm, igidlərin xanıyam,**
**Bu ətrafda bütün hər yan mənimdi!**

**Adımı soruşsan, bil, Rövşən olu,**
**Atadan, babadan cinsim Koroğlu;**
**Mənəm bu yerlərdə bir dəli, dolu,**
**Gündoğandan ta günbatan mənimdi!**

(Bax: "Koroğlu", səh. 30; "ქოროღლი", səh. 36).

Üç bənddən ibarət bu şeirin ritm konstruksiyası belədir: 1) bənd: ØbØb ; 2) bənd: fffb; 3) bənd: qqqb. Ritm vahidi: 1) II, IV sətrin – ***an*** və rədifi – ***mənimdi.*** 2. bəndin – ***t-anıyam***, ***q-anıyam***, ***x-anıyam***; sətrin – ***y-an mənimdi***; 3. ***olu-oğlu***, ***d-olu***; IV. ***günbatan mənimdi***. Gətirilən çıxarışdan aydındır: 1) beytin II və IV sətirlərində verilən növbəti beytlərin dördüncü sətrində təkrar olunan ritm vahidi an+mənimdi, bu verilən qoşqunun strukturunun düzübqoşanı və əsas fikrin ötürücüsüdür. Bütün bu qəhrəmanlar meydanı, gündoğandan ta günbatan mənimdi, – deyir Koroğlu; 2) bəndin ilk üç sətrində ritm tam olaraq verilib – ***anıyam***; 3) bəndin birinci üç sətri zəngin, lakin nisbətən az səslənən ritmlə təqdim olunub. Ritmin mikrokonstruksiyası üçüncü bənddə yalnız bircə dəfə pozulub – ***oğlu-olu***.

Bu cür akustik cüzi yana dönmələr aşıq üçün yad deyildir, əvəzində ritm konstruksiyası kəskin şəkildə tənzim olunmuşdur ki, bu barədə də aşağıda danışmalı olacağıq. Lakin bu dəfə bu şeirin üfüqi və şaquli məhvərlərində bənzər fonemlərin bir-birlərinə münasibətlə zəngin musiqili harmonik məkanını yaradan evfonik səviyyəsinə toxunmaq istəyirik. Məsələn, üfqi olaraq: I sətir bizə bu cür fonoqrama verir: 1) ən>ən, əm-əm; II. meydana>meydan, ən>ən; III. qı=koh=qəh; IV. düş-man=mənimdi. 2) bəndin I. meydan//meydan, gir-ən-an-naan; II. ın-ın-nı; III igidəm igid, ir-ir; IV. bu-bu, ətr-ər. 3) bəndin I soruşsan-Röv-şən. II. Ata-dan-Baba-dan. III. er-lər; IV gün-gün do-ğandan, gün-batan.

Şaquli məhvər isə belə bir mənzərə təklif edir: 1) Mə-mə-mə, ən-ən, Qır-kır-qıl. 2) Məy-mey, qır-qır, əra-qırat. 3) Ad-at, kor-röv, her-yer, bir-bir, lər-lər, də-ta-da... Bir sözlə, bu sözlərin, hecaların, istərsə də şeirin sətirləri arasında yedəklənən və sığınan fonem bənzərliyi, istərsə də eyniliyi göz üçün çətin nəzərə çarpır. Lakin qulaqların dinləməsinə uyğun gəlir, musiqili fon yaradır və ritm-ritm konstruksiyası ilə birlikdə dinləyiciyə təsir göstərir, onun təsəvvür qabiliyyətini gücləndirir, poetik obrazı hərflər və çalarları, yaxud musiqi və rəngkarlığı bir bütöv ölçüdə əmələ gətirir. Başlıcası isə odur ki, aşıq şeiri, bir qayda olaraq mahnı üçün yazılır və müvafiq olaraq onun mətni də hərflərin uyğunlaşmasına daha böyük əhəmiyyət verir. Belə ki, bir fakt mənə tamamilə təbii görünür: təhlil olunan eposda istənilən şeir strukturunun əsas ünsürü ritmdir ki, buna da aşıq böyük canfəşanlıqla yanaşır. Buna arqument olaraq təhlil olunan eposda istənilən şeir yararlıdır. Lakin indi yalnız səkkiz hecalı şeir üzərində dayanacağıq: (Bax: "Koroğlu", səh. 31-32; "ქოროღლი" , səh. 38). 1) bənd I Ø, II q-ataram, III Ø IV b-ataram. 2) bənd I öyə, I s-öyə, III g-öyə, IV tu-taram. 3) bənd I kü-sür kimi, II ə-sir kimi, III y-esir kimi, IV çataram. 4) I meyd-anı, II q-anı, III x-anı, IV qataram. 5) I k-arında, II il-qarında, III baz-arında, IV sataram.

Gətirilən şeirin strukturunun birləşdirici və bağlayıcı ritmi birinci bəndin II və IV sətrində verilən və növbəti bəndlərin IV sətrində təkrar olunan ***ataram*** sözüdür. Eləcə də növbəti bəndlərin ilk üç sətri də tam ritmlərlə düzəlmişdir ki, onların mikrostrukturunu qaydaya salır. İndi fonemlərin qarşılıqlı münasibətinə diqqət yetirsək 1) bəndin fonemlər qamması belədir: çıq-qı-ki, la-əl, ba-ba-ba, 2) bənd na-nə, öz-öy, mey-dan-da, çı-xar, kə-mənd, ib-ib, ar-ar. 3) nə-an, ar-ne, sür-sir-sır, in-ni, la-dal-da. 4) qır-ıb, am-an, da-tə-ib, qırət-qatar-am. 5) Qoç-Kor-oğlu, ilqar-Qırat, ıb-Həl-əb-ba, seni-seni, ib bar-zar...

Bu fonem səviyyəsində və hərflərin qarşılıqlı münasibəti ilə toxunan torun təhlili, xüsusi tədqiqata lüzum gəlsə, bizi uzağa aparar. Bu dəfə bu hərflərə münasibətlər mənzərəsini ona görə təqdim etdim ki, oxucu işimizin necə bir zəngin evfoniya ilə olduğunu dərk etsin. Halbuki bu şeirin mahnısı, istərsə də deklamasiyası zamanı bunu yalnız kar və eşitmə əngəlli dinləyici hiss edə bilməz. Mən isə yekun olaraq sizə bildirəcəyəm ki, Koroğlunun aşıq qoşqularının ritm-evfoniya səviyyəsi yüksək səviyyədə qurulub və əgər ağzıgöyçəklər cızmaqara edib buna şübhə ilə yanaşarsa, bu qəhrəmanlıq eposunu vərəqləsin və istənilən şeirin mikrostrukturunu böyük diqqətlə çözsün.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə Məmmədoğlu**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ "იენი იოლი" საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

15 NOYABR
2023-CÜ İL
№ 021 (192)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## 2024-CÜ İLİN DÖVLƏT BÜDCƏSİ LAYİHƏSİNİN HAZIRLANMIŞ VERSİYASINDA TƏHSİLƏ AYRILACAQ MƏBLƏĞİN MİQDARI ARTIRILIB



Qanunvericilik orqanı 2024-cü ilin dövlət büdcəsini dekabr ayında təsdiq etməlidir. Büdcə layihəsinin hazırlanmış versiyası artıq parlamentdədir və deputatlar onun təsdiqlənməsi üçün bu ayda fəal müzakirələrə başlamalıdırlar. Yekun olaraq isə, ölkənin əsas maliyyə sənədi dekabrın sonuna qədər təsdiqlənəcək.

Büdcə layihəsinin hazırlanmış versiyasında təhsil istiqamətində artıq Baş nazir İrakli Qaribaşvili tərəfindən anons edilmiş – müəllimlərin əməkhaqqının artırılması məsələsi də qeyd olunub. Bildirilir ki, həftədə 18 saat dərsi olan müəllimlərin əməkhaqqı 500 lari artırılacaq. Ancaq əməkhaqqının artırılacağı vaxt və ətraflı konsepsiya hələ məlum deyil. Baş nazir isə sentyabrda "müəllimlərin əməkhaqqının artırılması üçün yeni konspesiyanı oktyabrın sonunda təqdim edəcəyik" demişdi.

Dövlət büdcəsi layihəsinin hazırlanmış versiyasında oxuyuruq: *"Təhsil və elm istiqamətində maliyyələşdirmə büdcənin ilkin variantına nisbətən 160 milyon lari artırılıb (ümumilikdə 580 milyon lari artır), bunun çərçivəsində nəzərdə tutulub: ictimai məktəb müəllimlərinin əməkhaqqının artırılması – həftədə ən azı 18 saat dərs yükü olan müəllimlərin orta əməkhaqqı 500 lari artırılacaq. Bu məqsədlə ilkin varianta 30 milyon lari ayrılıb".*

**Sənəddə nəzərdə tutulub:**

• İctimai məktəblərin inzibati heyətinin və mandaturun əməkhaqqının 10 % artırılması;

• İctimai məktəblərin tikinti və bərpası üçün 450 milyon lariyə qədər pul ayrılıb – büdcənin ilkin versiyasına nisbətən maliyyələşdirmə 104 milyon lari artırılıb;

• Uşaq bağçalarının tikinti və bərpasına 225 milyon laridən artıq məbləğ sərf olunacaq;

• Bundan əlavə, bələdiyyələrin artırılmış gəlirləri çərçivəsində uşaq bağçası əməkdaşlarının əməkhaqqının 100 lari artırılması mümkün olacaq.

**Maliyyələşdirmə və proqram istiqamətlərinə uyğun olaraq məbləğin miqdarı:**

Təhsil və Elm Nazirliyinin maliyyəsi büdcənin ilkin versiyasına nisbətən 160 milyon lari artırılıb və 2500 milyon lari müəyyən edilib. Məbləğlər əsasən qeyd olunan proqramların həyata keçirilməsinə yönləndiriləcək:

**Məktəbəqədər və ümumi təhsil** – 1575,0 milyon lari (48,1 miyon lari artırılıb), həmin məbləğ çərçivəsində ictimai məktəb müəllimlərinin əməkhaqqının artırılması nəzərdə tutulub. Qeyd etmək lazımdır ki, həftədə ən azı 18 saat dərs yükü olan müəllimlərin əməkhaqqı orta hesabla 500 lari artırılacaq.

Həmin proqram çərçivəsində 70 milyon laridən artıq məbləğ ictimai məktəblərin kompüter texnikası və laboratoriyalarla təmin edilməsi üçün nəzərdə tutulub. 61 milyon lariyə yaxın isə birinci sinif və fərqlənən şagirdlərin kompüterlə təmin edilməsi üçün nəzərdə tutulub.

• Peşə təhsili üçün – 113 milyon lari (15 milyon lari artırılıb);

• Ali təhsil üçün – 166,3 milyon lari (3,9 milyon lari artırılıb);

• Elmə və elmi tədqiqatlara dəstək üçün – 78,2 milyon lari;

• İnklüziv təhsil üçün – 56,2 milyon lari;

• İnfrastrukturun inkişafı üçün – 424,2 milyon lari (87 milyon lari artırılıb).

**Həmçinin** ümumtəhsil müəssisələrinin infrastrukturunun inkişafı üçün – 333 milyon laridən artıq (Gürcüstanın Regional İnkişaf və İnfrastruktur Nazirliyinin ayırdığı vəsaitlə yanaşı 469 milyon laridən artıq məbləğ də nəzərdə tutulub);

Peşə təhsili müəssisələri infrastrukturunun inkişafı üçün – 62,4 milyon lari (həmçinin, "I (KFW) proqramının peşə təhsili və işlə təmin etmə sektorunun inkişafı proqramı üçün müasir bacarıqlar – layihə (ADB) çərçivəsində müəyyən edilmiş vəsaitlər);

Ali təhsil və elm müəssisələri infrastrukturunun inkişafı üçün – 15 milyon lari.

İnfrastruktur Nazirliyinin büdcəsində isə yazılıb ki, 800 milyon laridən artıq məbləğ infrastruktura yönləndiriləcək (büdcənin ilkin variantına nisbətən maliyyələşdirmə 104 milyon lari artırılıb).

*Mənbə: edu.aris.ge*

## TƏHSİL VƏ ELM NAZİRLİYİNİN ADI DƏYİŞDİRİLİR



Gələn ildən Gürcüstan Təhsil və Elm Nazirliyinə Gənclər Agentliyi əlavə olunaraq qurumun adı dəyişdiriləcək. Bu barədə təhsil və elm naziri Giorgi Amilaxvari hökumətin iclası başa çatdıqdan sonra jurnalistlərə bildirib.

Müvafiq qanunvericilik dəyişikliklərini həyata keçirdikdən sonra qurumun adı Təhsil, Elm və Gənclər Nazirliyi olacaq.

"Biz bu gün Gənclər Agentliyinin Mədəniyyət, İdman və Gənclər Nazirliyindən Təhsil və Elm Nazirliyinə keçirilməsi haqqında müzakirə apardıq. Hökumətin müzakirəsi zamanı qərar qəbul edildi. Təhsil və gənclər siyasətini öz proqramlarımızda və nazirlikdə onsuz da əhatə edəcəyik. Ona görə də gənclər siyasəti və təhsilin yaxınlaşdırılması nəticəsində bu agentliyin fəaliyyətinin Təhsil və Elm Nazirliyində davam etdirilməsini məqsədəuyğun hesab edirik. Nəticədə qanun layihələrinin siyahısı parlamentə təqdim olunacaq və gələn ildən Gənclər Agentliyinin də əlavə olunacağı yeni nazirlik – Təhsil, Elm və Gənclər Nazirliyi formalaşdırılacaq", – deyə Giorgi Amilaxvari bildirib.

Mənbə: etaloni.ge

## GÜRCÜSTANDA QADINLAR KİŞİLƏRDƏN ÇOX MƏİŞƏT ZORAKILIĞINA MƏRUZ QALIBLAR



Gürcüstan Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən, 2023-cü ilin yanvar-sentyabr ayları ərzində ölkədə 5920 məişət zorakılığı faktı qeydə alınıb.

Məlumatda bildirilib ki, qadınlar 4977 məişət zorakılığı halı zamanı, kişilər isə 943 məişət zorakılığı halı zamanı zərər çəkib.

Hesabat dövrü ərzində 1764 ailədə fiziki zorakılıq halı qeydə alınıb.

Məlumata əsasən, 4785 hadisə zamanı zorakılığı kişi, 867 hadisə zamanı isə zorakılığı qadın törədib.

## GÜRCÜSTANDA QADIN TƏLƏBƏLƏRİN SAYI KİŞİ TƏLƏBƏLƏRİN SAYINDAN ÇOXDUR



Gürcüstan Təhsil və Elm Nazirliyinin yaydığı məlumata əsasən, 2022-2023-cü tədris ilinin əvvəlində ölkədə ümumilikdə 634000 şagird, 161000 tələbə qeydiyyatda olub.

Məlumata görə, dövlət ümumtəhsil müəssisələrində şagirdlərin 48 %-i qızlardan (özəl ümumtəhsil müəssisələrində 47 %-i ), 52 %-i isə oğlanlardan (özəl ümumtəhsil müəssisələrində 53 %-i) ibarətdir.

Dövlət peşə təhsili müəssisələrində qadınların sayı 43 %, kişilərin sayı isə 57 % təşkil edib.

Dövlət ali təhsil müəssisələrində isə qadın tələbələrin sayı kişi tələbələrin sayından çoxdur – qadınlar 52 %, kişilər 48 %.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.